# ŞƏKİ: ƏFSANƏVİ İPƏK YOLUNDAKI ŞƏHƏR




(əvvəli ötən sayımızda)

**Şəkililər ölkə rəhbərinin əhalinin sosial müdafiəsi sahəsində yeritdiyi siyasəti yüksək qiymətləndirir, aztəminatlı əhali qrupuna göstərdiyi böyük diqqət və qayğının təzahürü kimi qəbul edir. İyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə çıxış edən Prezidentimiz demişdir: ” Bildiyiniz kimi, bu ilin əvvəlində çox böyük sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir. Çox önəmli addımlar atılmışdır - minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılmışdır.**

Birinci dəfə 40 faiz, ikinci dəfə də 40 faiz artmışdır, bu, artıq sentyabr ayından ödəniləcək. Minimum əməkhaqqı təxminən 2 dəfə qaldırılıb, 130 manatdan 250 manata çatdırılıb. Pensiya isə 116 manatdan 200 manata çatdırılıb. Bu da çox əhəmiyyətli artımdır və əlbəttə ki, buna böyük maliyyə vəsaiti lazımdır. Biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik”. Bəhs olunan dövrdə Şəkidə əmək haqları, pensiyalar və ünvanlı sosial yardımların əhaliyə çatdırılmasında, əhalinin sosial müdafiəsinin daha etibarlı şəkildə təmin olunması istiqamətində bir sıra işlər görülmüşdür. Aztəminatlı ailələrin Dövlət Sosial Müdafiəsinin təmini məqsədilə Nazirlər Kabinetinin 05 fevral 2016-cı il tarixli 37 nömrəli qərarı ilə təsdiq edilmiş ” Ünvanlı Dövlət Sosial Yardımının alınması üçün müraciət edilməsi, onun təyin olunması,verilməsi və verilməsindən imtina edilməsi Qaydalarına ” ilə vətəndaşların tanış olması üçün şöbədə maarifləndirmə işləri təşkil olunmuş , eyni zamanda əhali aktiv məşğulluq layihəsinə cəlb olunmuşdur. Dövlət Sosial Müdafiə Fondunun Şəki Şəhər Şöbəsi 2019-cu ilin I yarısında 24710 nəfər əmək pensiyaçısına xidmət göstərmişdir .Həmin pensiyaçılardan 15134 nəfəri yaşa görə ,7812 nəfəri əlilliyə ,1764 nəfəri isə ailə başçısını itirməyə görə pensiya alanlardır. 2019-cu ilin I yarısında Şəki rayon Məşğulluq Mərkəzi tərəfindən 899 nəfər işə düzəlmişdir ki, onlardan 218 nəfəri qadın, 177 nəfəri gənc , 19 nəfəri qaçqın və məcburi köçkündür. Əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan təbəqəsinin sosial müdafiəsini təmin etmək məqsədilə 2019-cu il üçün rayonun təhsil, səhiyyə, tikinti, rabitə ,mədəniyyət və digər sahələrdə iş yerlərinin yaradılması üçün şəhər icra hakimiyyətinin başçısının sərəncamına əsasən 15 kvota yeri müəyyən edilmişdir. 2019-cu il mayın 23-də keçirilmiş ” Əmək Yarmarkası ”na 15 müəssisə və təşkilatdan 336 vakant iş yeri çıxarılmışdır. Yarmarkada 42 nəfər işlə təmin olunmuşdur.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə kənd təsərrüfatının inkişafında yeni mərhələ başlanmışdır. Aqrar sahədə həyata keçirilən islahatların əsas məqsədi əhalinin məşğulluq problemini həll etmək, qeyri- neft sektorunu inkişaf etdirməkdən ibarətdir.

Şəki respublikamızın ən iri aqrar rayonlarından biridir. Rayonun kənd təsərrüfatının əsas sahələrindən birini taxılçılıq təşkil edir. Rayon ərazisində taxıl istehsalçıları tərəfindən ötən iln payızında əkilmiş 66939 hektar taxıl sahəsində yetişən məhsulun vaxtında və itkisiz yığılması üçün tərəfimizdən zəruri tədbirlər görülmüşdür. Bu il rayonda 235 min 198 ton taxıl istehsal olunmuş, orta məhsuldarlıq 34.6 sentner təşkil etmişdir ki, bu rayonun taxılçılıq tarixində ən yüksək göstərici hesab olunur. Hesabat dövründə rayonda 5022 hektar sahədə yazlıq bitkilərin əkini həyata keçirilmişdir. Yazlıq əkinlərə yüksək səviyyədə aqrotexniki qulluq göstərilmiş və sahələrdə bol məhsul yetişmişdir. Hazırda yazlıq bitki məhsullarının yığımı gedir. Rayonumuzda kənd təsərrüfatı işlərinin müasir səviyyədə qurulması , məhsul istehsalının artırılması, kənd təsərrüfatı istehsalçılarının maraqlarının müdafiəsi məqsədilə şəhər icra hakimiyyəti tərəfindən zəruri tədbirlər həyata keçirilir. Mayın 26-da Şəkidə Kənd Təsərrüfatı Nazirliyi ilə Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkil etdiyi kənd təsərrüfatı texnikası yarmarkası təşkil edilmişdir. İki gün davam edən yarmarkada təsərrüfat sahibləri və fermerlər müasir kənd təsərrüfatı texnikası və onların satış şərtləri ilə yaxından tanış olmaq imkanı əldə etmişlər.

Rayon üçün spesifik hesab edilən baramaçılığın, tütünçülüyün, fındıqçılığın inkişafının təmin edilməsi istiqamətində ölkə başçısı tərəfindən qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi üçün geniş iş aparılır.Baramaçılığın inkişafında əsas faktor ipəkqurdunun yem bazasının genişləndirilməsidir. 2016 - 2017-ci illərdə ildə rayonumuzda 92 min ədəd Çin Xalq Respublikasından idxal olunan və 123400 ədəd yerli sortlardan ibarət tut tingi əkilmişdir. Lakin bu il baramaçılıqda mövcud vəziyyət göstərdi ki, ipəkqurdunun yem bazası zəifdir. Qarşıda duran əsas məsələ tut tinglərinin əkin sahələrini genişləndirmək, mövcud sahələrə ardıcıl aqrotexniki qulluq göstərmək, kümxanalar yaratmaq, bu sahə ilə bağlı maarifləndirmə işləri aparmaqdır.

Rayonda istehsal olunan ixrac yönümlü məhsullardan birini də tütün təşkil edir. Şəkidə tütün əkinlərinin genişləndirilməsi və istehsalın həcminin artırılması daim diqqət mərkəzində saxlanılır.Bu il rayonda 1061 hektar sahədə tütün əkini aparılıb və bu ötən ilin əkinindən 184 hektar çoxdur. Tütünçülüyün inkişaf etdirilməsi və istehsalçıların marağının müdafiə olunması məsələsi də Şəki şəhər icra hakimiyyəti tərəfindən daim nəzarətdə saxlanılır. 2019-2023-cü illərdə regionların sosial- iqtisadi inkişafına dair Dövlət Proqramında qarşıya qoyulan vəzifələrdən biri də tütün qurutma komplekslərinin yaradılmasından ibarətdir. Bu məqsədlə 2019-cu il mayın 11-də Şəki şəhər icra hakimiyyəti başçısının təşəbbüsü ilə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin iştirakı ilə tütün istehsalçılarının , emalçılarının və mütəxəssislərin iştirakı ilə geniş yığıncaq keçirilmiş,rayonda müasir tələblərə cavab verən tütün qurutma kameralarının quraşdırılması istiqamətində müzakirələr aparılmışdır.Yığıncaqda rayon ərazisində 200 ədəd tütün qurutma kameralarının quraşdırılması və bu sahədə kooperasiya yaradılması nəzərdə tutulmuşdur. Müddət ərzində 23 kamera quraşdırılıb istifadəyə verilmiş, 60 kameranın quraşdırılması işi aparılır. 2019-cu ilin yaz mövsümündə Şəkidə 388 hektar sahədə yeni fındıq bağlarının salınmışdır. 2019-cu ilin birinci yarısında Şəkidə yenidənqurma , tikinti - quraşdırma işləri davam etdirilmiş ,ilin əvvəlində şəhərdə aparılacaq abadlıq , quruculuq işlərinin planı təsdiqlənmişdir. İl ərzində şəhərin 12 küçəsində yolların əsaslı təmir edilməsi , 10- dan artıq küçənin dağılmış örtüyünün asfalt betonla bərpa olunması 8 küçədə su arxlarının yenidən qurulması, 6 küçədə yararsız vəziyyətə düşmüş səkilərin təmir edilməsi , 6 ədəd coxmənzilli ictimai yaşayış binalarının dam örtüklərinin əsaslı təmir edilərək yenidən qurulması, 17 ədəd yaşayış binasının bloklarının əsaslı təmir edilməsi, həyətlərində abadlıq işlərinin aparılması nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 15 yanvar 2019-cu il tarixli, 890 nömrəli Sərəncamına əsasən ayrılmış vəsait hesabına Şəki Şəhər İcra Hakimiyyətinin yeni inzibati binasının davam etdirilir.



Son illər ölkəmizdə turizmin inkişafı ilə bağlı bir sıra tədbirlər həyata keçirilir. Cənab Prezidentimizn qərarı ilə Dövlət Turizm Agentliyi yaradılmışdır. Şəki bu gün Azərbaycanda turizmin yüksək səviyyədə inkişaf etdiyi bölgələrdən birinə çevrilmişdir. Şəkidə turizm infrastrukturunun yaradılması istiqamətində mühüm işlər görülmüş, müasir tipli istirahət mərkəzləri, yeni otellər istifadəyə verilmişdir. Şəkidə il ərzində xalqımızın zəngin mədəni irsinin təbliğinə həsr olunan müxtəlif festivalların keçirilməsi də rayonumuzda turizmin inkişafına əhəmiyyətli dərəcədə kömək göstərmişdir. Cənab Prezidentimiz İlham Əliyevin , YUNESKO- nun xoşməramlı səfiri Mehriban xanımın bu sahədə gördüyü işlərin əhəmiyyəti böyükdür. Hazırda ”Yuxarı Baş” Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində turizm imkanlarının daha da gücləndirilməsi istiqamətində iş aparılır.

Məlumdur ki, Şəki YUNESKO -nun ” Yaradıcı Şəhərlər ” Şəbəkəsi siyahısına daxil edilmişdir. Cari ilin 10-15 iyun tarixlərində İtaliyanın Fabriano şəhərində YUNESKO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinin ”İdeal Şəhər” mövzusuna həsr olunmuş növbəti 13-cü illik konfransı və konfrans çərçivəsində Yaradıcı Şəhərlərin Merlərinin Forumu keçirilmişdir. Şəki şəhərinin dörd nərəfdən ibarət nümayəndə heyəti həmin tədbirlərdə iştirak etmək məqsədilə Fabriano şəhərinə səfər etmişdir.

2019-cu ilin I yarısında Şəkidə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi sahəsində bir çox işlər görülmüşdür. Müddət ərzində 94 cinayət hadisəsi qeydə alınmışdır. Qeydə alınan cinayətlərdən 98 faizinin açılması təmin edilmişdir. Müddət ərzində Şəki Şəhər Rayon polis Şöbəsi tərəfindən keçirilən əməliyyat axtarış tədbirləri nəticəsində narkomaniya ilə bağlı 30 fakt aşkar edilmiş, 3 kq. 430 q. müxtəlif növ narkotik vasitələr dövriyyədən çıxarılmışdır.

**Respublikamızda ordu quruculuğunun möhkəmləndirilməsi, gənclərin hərbi xidmətə çağırışının həyata keçirilməsi, hərbi vətənpərvərlik tərbiyəsi ölkə rəhbərliyinin daim diqqət və nəzarətindədir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına uyğun olaraq 2018-ci ilin I yarısında 233 nəfər həqiqi hərbi xidmətə göndərilmişdir.**

**Məzahir ƏHMƏDZADƏ**